# “Koroğlu” Dastanında Tarixilik

*[Historical in the Epic “Koroglu”]*

**Naile ASKER***

*Özet:* “Koroğlu” dastanı geniş əraziyə yayılmış, iki böyük versiyaya bölünmüş, çox sayda variantı olan qədim bir folklor mirası və eyni zamanda bugün də aşıqlar tərəfindən icra olunaraq yaşayan bir epik əsərdir. Dastanın qədim laylarının Orta Asiya coğrafiyasında yarandığı və buradan türk boylarının köçləri ilə qərbə və cənuba doğru genişləndiyi fikri mövcuddur. Lakin bununla yanaşı dastanın Cənubi Azərbaycanda və Anadoluda Cəlalilər hərəkatı ilə başladığı fikri də mövcuddur. Koroğlunun tarixi şəxsiyyət olduğu, bu hərəkatda fəal iştirak etdiyi və məşhurlaşdığı da irəli sürülən müddəalar arasındadır. Bu məqalədə “Koroğlu” dastanı haqqında qısa məlumat verilir, bu epik əsərin tarixilik məsələləri haqqında mütəxəssislərin fikirlərinə yer verilir, dastanın yaranma, yayılma, variantlaşma mövzusu araşdırılır.

*Açar Sözlər:* “Koroğlu” dastanı, variant, tarixilik, qəhrəmanlıq, Türk, epik.

*Abstract:* The epos “Koroglu” is an ancient folklore heritage with a large number of variants, divided into two large versions, and at the same time a living epic work told by ashugs today. There is an idea that the ancient layers of the saga originated in the geography of Central Asia, and from here the migration of the Turkic tribes expanded to the west and south. However, there is also the idea that the saga began with the Jalali movement in South Azerbaijan and Anatolia. It is said that Koroglu was a historical figure, took an active part in this movement and became famous. This article gives brief information about the “Koroglu” epos, the opinions of experts on the historical theme of this epic work, the origin, spread and variation of the epos.

*Keywords:* “Koroglu” epos, variant, history, heroism, Turkish, epic.

## Giriş

Qədim Türk ənənələrinə görə hökmdar döyüşə gedərkən ordusunun ön sıralarında ozanları götürmüşdür. Ozanlar qəhrəmanlıq havaları ilə orduya ruh yüksəkliyi verməklə yanaşı, həm də döyüş vaxtı döyüşçülərin şücaətinə şahid olaraq bunu sənədləşdirirdi. Bu baxımdan qədim türk qəhrəmanlıq dastanları türkün tarixi, hərb salnamələridir. Bu qəhrəmanları tərənnüm edən dastanların, demək olar ki, hamısı hələ

* Doç. Dr., AMEA Folklor İnstitutu, qaracantali@live.com

qəhrəman yaşayarkən yayılmağa, dildən-dilə dolaşmağa başlayırdı. Ən kiçik folklor nümunələrindən ən böyüyünə - epik əsərlərə, dastanlara qədər şifahi ədəbiyyatımızın mövzusu olan hadisələrdə türk qövmünün tarixi şifrələnmişdir. Dastanlarımız bu məsələdə digər folklor növlərinə görə daha öndədir. Türk xalq ədəbiyyatının epik növü olan dastanlar dünya mədəniyyət tarixinə bir çox dəyərli söz abidələri hədiyyə etmişdir. “Latındilli qaynaqların qoruduğu bilgiyə görə ozanlar Atilla dövründən və Atilla sarayından başlayaraq Səlcuqlar da daxil omaqla XV yüzilliyə kimi qopuzları ilə saraylarda şənlik və törənlərdə tarixi hadisələri, müxtəlif bahadırları tərənnüm etmiş, onları tanıdıb yaşatmışlar.” (Abbaslı 2009: 132).

Qədim türk dastanları qəhrəmanlıq mövzusundadır və əsasən döyüşçü, hökmdar və ya igidlik göstərmiş hər hansı bir qəhrəman haqqındadır. Təsvir qisimlərində epik söyləyicinin dilindən danışılmış, amma o özü hadisələrə qarışmamışdır. Əsasən dastan məşhurlaşdıqdan sonra ilk söyləyicinin kimliyi unudulardı, o, məçhul bir ozan və ya şamandır. Qəhrəmanlıq, igidlik, qorxmazlıq, cəsarət, vətənpərvərlik, mərdlik, dürüstlük, ədalət kimi yüksək bəşəri dəyərlər bu dastanların ortaq mövzulardır. Qədim türk ənənələrinə bağlı olan bütün dastanlarımız bu məsələlərdə bir-birinə sıx bağlıdır. Eyni zamanda bu dastanlar özbaşına müstəqil əsərlər olmaqla yanaşı quruluşca da bir-birindən fərqlənirlər.

> “Epos həmişə beynəlxalq xarakterindəki ələmətlərinə görə seçilir: o bir qəbilənin başçısı ilə mübarizəni tərənnüm edir, buna görə də həmin mübarizədən danışan hekayə döyüşən hər iki tərəf üçün maraqlı olur. Buradan da bəlli ibarə meydana çıxır ki, epos qəbilələrin toqquşmasından yaranır.” (Весоловский 140: 476).

Dastan sözü dilimizə fars dilindən keçmişdir. Bu söz Azərbaycan dilində hekayət, nağıl mənasında epik və ya epik-lirik janra verilmiş addır. Türkmən türkcəsində bu söz “dessan” şəklində tələffüz olunur.

Müxtəlif türk xalqları arasında qəhrəmanlıq dastanlarına ta qədimdən hazırkı dövrədək “comaq”, “cır”, “olonqho” və ya “ərtəgü” deyildiyi də məlumdur. Başqırdlarda isə bu mənada “kobayır” sözü istifadə olunur. Türk boylarının geniş coğrafiyaya yayılması, müxtəlif siyasî, dinî, mədənî və s. təsirlərə məruz qalması, xalqlar arasında əlaqələrin zəif olması bu qədər çox temrinin meydana gəlməsinə səbəb olmuşdur. Bundan başqa, yenə siyasî, ideoloji, mədənî əlaqələrin zəifliyi ortaq terminlərin yaradılmasına və işlədilməsinə mane olan səbəblərdən biri olmuşdur. “Qədim türk dastanı əsasən e.ə. I minilliyin ortalarında meydana çıxmışdır. Lakin epos ənənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etnik,

estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır.” (Abbaslı 2009: 15-16).

Qədim türk qəhrəmanlıq dastanları ənənəvi söyləyicilik tərzinə malikdir və demək olar ki, bütün dastanlar bu qəlibə uyur. “Qədim türk cəmiyyətində dastan anlayışı istisnasız olaraq alplıq fikrinin xarakterləşməsinə yönləndiyi üçün bu mərhələyə aid olan epik ənənənin özəyində qəhrəmanlıq motivi və bu motivin ifadəsi olan müxtəlif qəhrəmanlıq süjetləri durur.” (Cəfərov 1999: 255-256).

Qədim eposlarının mövzusu qəhrəmanlıq, sücaət, qəhrəmanı isə alp, döyüşçü-hökmdarlar idi. E. Meletinski bu eposların yaranma, yayılma və yaşama prosesini araşdırmış, bu prosesin ilkin qaynağını “mədəni qəhrəman haqqında mifologiyalar”dan (Мелетинский 2004: 30) aldığını qeyd etmişdir.

Türk xalq ədəbiyyatının başlanğıcı olaraq qəbul edilən, həcminə və söyləyicilik ənənəsinə görə şifahi ədəbiyyatın ən böyük və geniş növü olan dastanların kökü qədim türk mifologiyasının dərin qatlarına qədər enir. Dastançılıq mərhələsi kimi qəbul olunmuş qədim türk xalq söyləyicilik ənənəsinin yayıldığı dövrə nəzər salsaq, bu ənənənin keçdiyi uzun bir yoldan bəhs etməliyik. Həmin yol türklərin qədim həyat tərzi və inanc sisteminə uyğun şəkildə mifologiyadan qəhrəmanlıq dastanlarına, daha sonra İslâm dininə keçid prosesi ilə də bağlı olaraq yavaş-yavaş qəhrəmanlıq mövzularından məhəbbət mövzularına keçmişdir.

V. Jirmunskinin də ifadə etdiyi kimi, “epik üslûb həyatı dərk etmənin geniş hüdüdlarını müəyyənləşdirdi, ağız ədəbiyyatında böyük və ənənəvi hadisə yaratdı.” (Жирмунский 1974: 213). Bu da şifahi ənənəli söyləyiciliyin inkişafına və buna bağlı olaraq epik janrın, dastan yaradıcılığının yaranmasına səbəb oldu.

Türk xalqlarının və onlarla qonşu xalqların yaddaşında özünə dərin iz qoymuş epik folklor mətnlərinin başında “Koroğlu” dastanı gəlir. Dastan çox geniş əraziyə yayılmışdır, buna görə də iki böyük versiyaya və beş yüzdən çox varianta bölünmüşdür. Bugün “Koroğlu” dastanı, Xəzər dənizi əsas götürülərək, Qərb və Şərq versiyalarına ayrılmışdır. Araşdırdığımız Azərbaycan və Türkmən versiyaları da Qərb və Şərq versiyalarını təmsil edərək, demək olar ki, dastanı tam olaraq əhatə edir. Dastan versiyalar daxilində də fərqli və ortaq cəhətlərinə görə variantlaşmışdır. Bu eposun Orta Asiya coğrafiyasında yayılmış ən məşhur versiyalarından biri də türkmən “Goroğlu” dastanıdır. Türkmən xalqının “Goroğlu” dastanı Şərq veriyası arasında ən böyüyü və mükəmməli hesab olunur.

M. Köprülüzadə, Ə. Z. Vəlidi və s. folklorşünaslar "Koroğlu" dastanının mifoloji köklərinin hələ Göytürklər dövründə Orta Asiya oğuzları arasında yarandığı və yaşadığı fikrini müdafiə etmişlər. Bu fikirlə P.N.Boratav da razılaşmışdır:

> "Bu nəzəriyyəyə görə, "Koroğlu" dastanı, İslâmiyyətin türklər arasına girməsindən əvvəl Mavərayi Bəhri-Xəzər oğuzları arasında Oğuz-İran mücadiləsindən bu şəkildə ortaya çıxdıqdan sonra, islamiyyəti qəbul etmiş oğuzların Xorasandan İran, Azərbaycan və Anadoluya gəldikləri dönəmdə bu ərazilərə gətirilmişdir. Sonralar özbəklərlə türkmənlərin sıx münasibətdə olduğu zamanlarda özbəklərə, onlardan qazaxlara keçmişdir. Digər tərəfdən də Anadoluda və Azərbaycanda intişar etmiş, şəklini dəyişmiş, yeni bir dastan mahiyyətini almışdır." (Boratav 1984: 138).

Qədim türk dastanları yaradılış, varoluş və həyat düşüncələrinə geniş yer vermiş, fəlsəfi-mifoloji və estetik baxışla hadisələrə baxmış, bəzən bütövləşmə, müdrikləşmə, zənginləşmə yolu qət edərək təkamül yaşamışdır. Cəmiyyətin sosio-mədəni quruluşunun və inkişafının təsirində qalaraq həm mövzu, həm quruluş olaraq dəyişmələrə məruz qalmış dastanlarımızın keçdiyi yol xəritəsini belə göstərmək mümkündür: "Köçərilikdən oturaq həyata keçişin ilk məhsullarından olub; məhəbbət, qəhrəmanlıq və b. buna bənzər mövzuları işləyən; qaynağı türk, ərəb-İslâm və hind-İran olan, böyük miqdarda aşıqlar və məddahlar tərəfindən söylənilən nəzm nəsr qarışığı mətnlərdir." (Alptekin 2007: 7).

Dastanlarımız nəsr və nəzmli quruluşa malikdir, təsvir və şeir hissələrində qəlibləşmiş üslûb və ifadələrə rast gəlirik, əsasən qəhrəmanlıqdan və məhəbbətdən bahs edir, bəzən iki mövzu da bir yerdədir.

Koroğlunun tarixi şəxsiyyəti və dastanın yaranması məsələlərində bir-birinə ziddiyyət təşkil edən bir çox fikir və mülahizələr mövcuddur. Tarixi hadisələri və coğrafî koordinatları misal gətirərək dastanın türklərin İslâmîqəbulundan əvvəl Türküstanda yarandığını və buradan köçlərlə yayılaraq variantlaşdığını düşünənlərlə yanaşı, dastanın son üç-dörd əsrdə Qafqazda və ya Anadoluda yarandığını və Xorasan bölgəsindən baxşılar vasitəsi ilə türkmənlərə keçdiyini və buradan da Türküstanda variantlaşdığı fikrini müdafiə edənlər də vardır.

Dastanı Göytürk-Sasani, İran-Turan, sünnü-şiə qarşıdurmalarına bağladıqları kimi, faktlar və sənədlərlə Cəlalilər hərəkatı ilə əlaqləndirib ilk rüşeymlərinin buradan yarandığına bağlayanlar da vardır. Sovet dövrü ideologiyası daha çox Cəlalilər üsyanı fikrini ön plana çıxararaq

qəhrəmandan sosial cəmiyyət uğrunda vuruşan inqilabçı obrazı yaratmaq məqsədi güdürdü. Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən sovet tarixçisi İ. Petruşevski olmuşdur, amma sonrakı yazılarında o bu fikirdən yayınmış kimidir: “Ola bilər ki, Cəlalilər hərəkatının başçılarından biri daha qədim əfsanələrlə şöhrətlənmiş olan Koroğlu adını sonralar öz üstünə götürmüşdür.” (Петрушевский 1949: 85). Bu fikir Cəlalilər hərəkatı vaxtı mübarizə aparan Koroğlu adlı bir liderin olduğunu bildirir, amma onun bu adı daha sonra xalq arasında məşhur olan dastan qəhrəmanı Koroğlunun adından alıb-almadığını dəqiq demək mümkün deyil.

> “Nəzərə almaq lazımdır ki, epos təhkiyəsinin daha əvvəlki tarixi hadisə əlamətlərini sonrakı oxşar tarixi hadisələr üzərinə, daha əvvəlki tarixi şəxsiyyətin keyfiyyətlərini sonrakı tarixi şəxsiyyətlər üzərinə köçürmək, onlan uyuşdurmaq, eyniləşdirmək və ya fərqli tarixi zamanda mövcud olanları bir-birinin müasiri etmək keyfiyyəti orada yer alan obrazlarm, hadisələrin tarixi prototipini müəyyənləşdirməyə imkân vermir. Təsadüfi deyil ki, “Koroğlu” eposu qəhrəmanının tarixi prototipi ilə bağlı, təxminən 10-a yaxın real tarixi şəxsiyyətin adı hallandırılır: Cəlali Koroğlu, Aşıq Koroğlu, Sultan Xosrov Koroğlu, II Arşak, An Lu-şan, Babək və b. Yenə həmin dastanın min illik arada cərəyan etmiş Göytürk-Sasani, türk-Çin, türk-ərəb, Osmanlı-Səfəvi mücadilələri, Cəlalilər üsyanı və digər hadisələrlə bağlılığı haqqında müxtəlif fikirlər mövcuddur.” (Abbasov 2008: 51).

P. N. Boratav (2002: 188) dastanın qaynağını Cəlalilər üsyanlarından aldığını və qolların XVI əsrdə Boluda təşəkkül etdiyini hesab edir. Z. V. Toğan (Anadol 1993: 65) dastanı variantlardakı toponimlər və şəxs adlarına əsasən oğuzların (Göytürklər) Sasanilərlə Xarəzm-Astrabad bölgəsindəki münaqişələr dövrü ilə əlaqələndirir. Onun fikrincə, Daha sonra Orta Asiyadan Xorasana, oradan Azərbaycana və Anadoluya köç edən türklər “Koroğlu” dastanını da yanlarında gətirmişlər. Bu mülahizəni M. F. Körpülüzadə və Z. Gökalp müdafiə etmiş, dastanınn təşəkkül dövrünü Göytürklər dövrü olaraq qəbul etmişlər. Z. Gökalp “Eski Turklerde İçtimai Teşkilat İle Mantıki Tasnifler Arasında Tenazur” adlı yazısında (Ziya Gökalp 1977: 89) Koroğlunu Sultan Mahmud Qəznəvi prototipinə bənzədərək Eyvaz adnın da Eyaza çox yaxın olduğuna diqqət çəkmişdir.

Bundan başqa, Anadoluda haqqında olan şikayətlərə görə adı sənədlərə düşmüş quldur Koroğlu və eyni zamanda Osmanlı ordusunda vəzifə tutmuş və qoşun ilə səfərə çıxdığı sənədlərlə təsdiq olunmuş saz şairi Koroğlu da mövcud olmuşdur. “Koroğlu İran şahı Şah Abbas və Türkiyə sultanı Sultan Muradın hâkimiyyəti dövründə çoxsaylı atlıların başında duraraq yollarda ağalıq edirdi; bəzən keçən tacirləri soyur, bəzən də onlardan razılıqla pul alırdı.” (Карryeв 1968: 10).

Fikrimizcə, dastan qəhrəmanının tarixi şəxsiyyət olduğunu araşdırmaq və tarixiliyi ön plana çıxarmaq folklor araşdırmacısının işi olmamalıdır. Koroğlunun tarixi şəxsiyyət olub-olmaması, tarixi şəxsiyyətdirsə hansı dövrdə yaşaması və ya hansı türk qövmünə mənsub olması onun qəhrəmanlıq dəyərlərindən heç nəyi götürmür.

Türküstandan Kiçik Asiyaya qədər məsafədə iqdisadî, siyasî və sosio-mədənî fərqliliklər qəhrəmanın fərqli statsus və mövqeyini təmsil edir. Köçəri həyat şərtlərinə görə yaşayan qövümlər üçün yağma və basqınlar iğidlik olaraq dəyərləndirilərkən, oturaq və ya yarıoturaq həyatda bunlar quldurluq hesab edilmişdir. Bu cəhətdən Koroğlunun məcəraları haqqında müxtəlif fikirlər yaranmışdır, amma V. Proppun da yazdığı kimi, dastanın əsas qəhrəmanı müasir mənada cəmiyyətin əxlaq dəyərlərinə uyğun gəlməyə bilər: "Eposda bütün əsas qəhrəmanlar müsbətdirlər və millî idealları təcəssüm etdirirlər. Lakin bununla belə, folklor qəhrəmanı heç də həmişə nəyin etik, nəyin isə qeyri-etik olduğu barədə müasir təsəvvürlərə cavab vermir." (Пропп 1976: 100).

X. Bəşirova dastanın genezisinə fəqli (fikrimizcə doğru) yanaşma nümayiş etdirmişdir. Alimin fikrincə, dastanın kökləri çox qədimdir və Orta Asiya oğuzları arasında yaranmış və zamanla Oğuz türkmən tayfalarının qərbə köçü nəticəsində Qafqazlara və oradan da Anadoluya gəlmişdir. Dastana daha çox bir folklor əsəri kimi baxılmasının lazım olduğu, onun tarixilik xüsusiyyətlərinin ön plana çıxarılmasının doğru bir tendensiya olmaması mülahizələrini müdafiə etməsi də alimin "Koroğlu" dastanına yanaşma tərzi haqqında gəldiyi ümumi qənaətlərdən biridir.

> "Dastana daha çox tarixi hadisələrin bədii əksi mövqeyindən yanaşan tədqiqatçılar "Koroğlu"da mifoloji zaman kəsiyini görə bilməmiş, onu XVI əsr Cəlalilər hərəkatı ilə bağlamağa çalışmışlar. Bu tədqiqatçılar dastanın bir sıra obrazlarının - Koroğlunun, Eyvazın, Dəli Həsənin, Giziroğlu Mustafa bəyin, Bolu bəyin, Həsən paşanın tarixi prototiplərini axtarıb tapmış, bununla da dastanın folklor əsəri olduğunu o qədər də nəzərə almamışdır." (Bəşirova 2000: 22).

"Koroğlu" dastanı qollarının geniş əraziyə yayılması bir tərəfdən dastanın və onun ətrafında təşəkkül tapmış rəvayətlərin məşhurluğunu göstərir, digər tərəfdən isə dastanla bağlı bir çox qarışıqlığa da səbəb olur. Bu gün "Koroğlu" dastanının variant və versiyalarının genezisi, təşəkkül dövrü, tarixiliyi, yeri, yayılma istiqaməti, mövzusu, əsas qəhrəmanların millî mənsubiyyəti, dinî etiqadı və s. kimi məsələlər haqqında çox tədqiqatlar aparılmış, tezislər irəli sürülmüşdür. Bu tədqiqatların bir çoxu faydalı olmuşdur, lakin bu işlərin hələ də lazimi səviyyəyə çatmadığı məlumdur.

Təəssüf ki, türk xalqları arasında ortaq "Koroğlu" tədqiqatları aparmaq, müqayisəli təhlillər etmək məsələsi bu gün də öz həllini tapmamışdır.

## Kaynaklar

Abbaslı, İ. (2009), *Folklorşünaslıq Axtarişları,* İki cilddə, Bakı: Elm Nəşriyyatı.

Abbasov, E. (2008), *"Koroğlu": Poetik Sistemi və Strukturu (Paris nüsxəsi əsasında)*, Bakı: "Nurlan" Nəşriyyatı.

Alptekin, A. B. (2007), *Halk Hikâyelerinin Motif Yapısı*, Ankara: Akçağ Yayınları.

Anadol, C. (1993), *Köroğlu*, Ankara: Türkmen Kitabevi.

Bəşirova, X. (2000), *"Koroğlu" Dastanı: Tarixi-Mifoloji Gerçəklik və Poetika*, Bakı: Elm Nəşriyyatı.

Boratav, P. N. (1984), *Köroğlu Destanı*. İstanbul: Adam Yayıncılık.

Boratav, P. N. (2002), *Halk Hikâyeleri ve Halk Hikâyeciliği*, İstanbul: Tarih Vakfı Yayınları.

Cəfərov, N. (1999), *Eposdan Kitaba*, Bakı: Maarif.

Təhmasib, M. (2010), *Seçilmiş Eserleri, 2 cildde*, I. Cild. Bakı: Mütərcim.

Весоловский, А. (1940), *Историческая поэтика*, Ленинград: Гос. Изд-во худ. лит.

Жирмунский, В. (1974), *Тюркский героический эпос*, Ленинград.

Каррыев, Б. (1968), *Эпические сказания о Кер-оглы у тюркоязычных народов*, Москва.

Мелетинский, Е. (2004), *Происхождение героического эпоса: Ранние формы и архаические памятники*, Москва: Вост. лит.

Петрушевский, И. (1949), *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-XIX вв. Ленинград*, изд. Ленинградского Государственного Университета.

Пропп, В. (1976), *Фольклор и действительность*. Москва: Наука

Ziya Gökalp (1977), "Eski Turklerde İçtimai Teşkilat ile Mantıki Tasnifler Arasında Tenazur", *Makaleler-III (Millî Tetebbular Mecmuasındaki Makaleler),* Haz. M. O. Durusoy, Ankara: Gündüz Matbaası, s. 17-90.